# Yeni yollar Tərtəri daha da gözəlləşdirir




Ümummilli lider Heydər Əliyev demişdir: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir". Ulu öndərin respublikamıza rəhbərliyi dövründə yol infrastrukturunda misilsiz işlər görülmüşdür. Bu gün ulu öndərin siyasi kursunu uğurla davam və inkişaf etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycanın hər yerində yeni, bütün standartlara cavab verən geniş, rahat yolların çəkilişi sürətlə davam etdirilir. Sözsüz ki, yol infrastrukturunda həyata keçirilən irimiqyaslı layihələrdən Tərtər rayonu da yetərincə bəhrələnir. Rayonda yolların hazırkı durumu ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 42 nömrəli Yol İstismar MMC-nin direktoru Ramil Bayramovla həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, 30 ilə yaxın bir müddətdə mənfur düşmən havadarlarının köməkliyi ilə əbədi və əzəli torpaqlarımızın bir hissəsini işğal altında saxlaya bildi.



Həmin müddət ərzində Tərtər dayanmadan düşmən atəşinə məruz qaldı, şəhərə külli miqdarda maddi ziyan dəydi, yollar bərbad günə düşdü. Mənfur düşmən hətta günahsız mülki insanları da hədəf seçdi. 2020-ci il sentyabr ayının 27-də dövlət başçısı Ali Baş Komandan İlham Əliyevin əmri ilə Müzəffər Ordumuz əks-hücum əməliyyatına start verdi. Cəsur əsgərlərimiz bəşər tarixində görünməmiş döyüş nümunələri göstərərək, cəmi 44 gün ərzində müqəddəs torpaqlarımızı yağı düşmən tapdağından azad etdi. Təəssüflə qeyd etmək lazımdır ki, igid Azərbaycan əsgərindən fərqli olaraq soysuz ermənilər döyüş meydanından aralıda yerləşən yaşayış məntəqələrimizi, o cümlədən Tərtəri aramsız olaraq raket və iriçaplı silahlardan atəşə məruz qoydular. Sözsüz ki, düşmənin cavabı layiqincə verildi. Ancaq Tərtərə, o cümlədən yol infrastrukturuna atılan mərmilər nəticəsində yollar yararsız vəziyyətə düşdü.

Direktor çox böyük sevinc hissilə bildirdi ki, möhtəşəm qələbəmizdən dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Tərtərdə genişmiqyaslı tikinti, quruculuq işləri başlandı. Hazırda həmin ərazilərdə analoqu olmayan quruculuq-abadlıq işləri sürətlə aparılır. İstər işğaldan azad olunmuş ərazilərdə, istərsə də digər bölgələrdə iqtisadiyyatın inkşafında müstəsna əhəmiyyətə malik olan müasir avtomobil və dəmir yollarının çəkilişi davam etdirilir. Dünyada analoqu olmayan tunellər tikilir.

Ramil Bayramov bildirdi ki, rəhbərlik etdiyi idarə 270 kilometr uzunluğunda avtomobil yollarına xidmət göstərir. Bundan 79 kilometr respublika əhəmiyyətli, 191 kilometr yerli əhəmiyyətli yollardır. Həmsöhbətim böyük iftixar hissi ilə bildirdi ki, 44 günlük Vətən müharibəsi şanlı qələbəmizlə başa çatandan bir neçə gün sonra dövlət başçısının müvafiq sərəncamı ilə uzunluğu 28,5 kilometr olan strateji əhəmiyyətə malik olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolunun çəkilişinə start verildi. Tikinti işləri sürətlə davam etdirilərək, qısa zaman kəsiyində müasir tələblərə cavab verən 2-ci dərəcəli respublika əhəmiyyətli yol 2021-ci ildə istifadəyə verildi. Respublika Prezidenti İlham Əliyev Tərtər rayonuna səfəri zamanı 3 oktyabr 2021-ci il tarixdə adıçəkilən avtomobil yolunun açılışını etdi. Beləliklə, bu yolla xarici və yerli turistlərin rahat gediş-gəlişi təmin olundu.

Direktor qeyd etdi ki, Respublika əhəmiyyətli 79 kilometr yol tamamilə asfaltlanmışdır. Yerli əhəmiyyətli yolun isə cəmi 17 kilometr hissəsi asfaltlanmayıb. Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikası Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkşafı Dövlət Proqramı"na uyğun olaraq cari ildə Seydimli-Cəmilli-Ağkənd-Dəmirçilər-Qaradağlı-Kovdadıq-Rəcəbbəyli yaşayış məntəqələrini birləşdirən, uzunluğu 25 kilometr olan avtomobil yolunun çəkilişinə başlanacaqdır.

Rayonun Tərtər-Hindarx istiqamətində respublika əhəmiyyətli, uzunluğu 23 kilometr olan yol 2019-cu ildə istifadəyə verilmidir. 2020-ci ildə isə yerli əhəmiyyətli 10 kilometr uzunluğunda İsmayılbəyli-Evoğlu avtomobil yolu istifadəyə verilmişdir. 2019-cu ildə uzunluğu 21,5 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Qaradağlı, 2018-ci ildə uzunluğu 9 kilometr olan M.Sarov-Borsunlu yerli əhəmiyyətli avtomobil yolları da istifadəyə verilmişdir. Bundan başqa, Hacıqərvənd kəndində 5 kilometr kənd daxili yollara asfalt örtüyü salınmışdır.

R.Bayramov bildirdi ki, 42 nömrəli Yol İstismarı MMC-də payız-qış mövsümündə avtomobillərin maneəsiz hərəkət etməsi üçün tədbirlər planına uyğun olaraq hazırlıq işləri aparılır. İdarədə növbətçilik cədvəli təsdiq olunur, ambara mal-material cəmləşir (duz-qum qarışığı, ehtiyat yanacaq və başqa lazımi avadanlıqlar). Noyabr ayından başlayaraq hazırlanmış ehtiyat duz-qum qarışığı yolların zəruri olan hissəsinə yol kənarlarına daşınır.

Qeyd etmək lazımdır ki, Tərtərin respublika və yerli əhəmiyyətli yolları ilə yanaşı, şəhərdaxili küçələrində də asfaltlanma işləri davam etdirilir ki, bu da şəhərin simasını dəyişir, gözəlləşdirir, müasir məkanlardan birinə çevirir. Hazırda şəhərdaxili yolların 46,5 kilometr hissəsi asfaltlanmış və bu işlər müntəzəm olaraq davam etdirilir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.- 2022.- 17 avqust.- S. 6.